| | |
|---|---|
| | **"Azərsu" ASC tərəfindən "ASAN Kommunal" və "ASAN xidmət" mərkəzlərində göstərilən xidmətlərin reqlamenti** |
| **1** | **İtirilmiş və ya zədələnmiş smart tipli kartların bərpası** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Smart kart (zədələndiyi halda); |
| | Smart tipli sayğacın nömrəsi və ya abonent kodu. |
| | **Xidmət haqqı** |
| | Elektromed sərfiyyat yükləmə kartı - 15,0 manat<br>Abşeron sərfiyyat yükləmə kartı - 7,0 manat<br>Metlab sərfiyyat yükləmə kartı - 10,0 manat |
| | **Müddət** |
| | Dərhal |
| **2** | **Borc haqqında məlumatın və əhali abonentləri üçün borcun olmaması haqqında arayışın verilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Müqavilə nömrəsi və ya abonent kodu. |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Məlumatın verilməsi - dərhal |
| | Borcun olmaması haqqında arayışın verilməsi - 3 iş günü müddətində |
| | **Qeyd 1**: Borcun olmaması haqqında arayış, abonent kodu üzrə borc olmadığı halda verilir. |
| | **Qeyd 2**: Sayğaca son baxış müddətindən abonentin müraciət etdiyi günədək (10 gündən artıq müddət ötdükdə) yaranmış borc, sayğacın faktiki göstəricisinə əsasən (sayğac işləmədikdə isə orta aylıq sərfiyyata uyğun) hesablanır və abonent tərəfindən tam ödənildikdən sonra borcun olmaması haqqında arayış verilir. |
| **3** | **Suölçən cihazların (sayğacların) istismarı ilə bağlı məlumatın verilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| **4** | **Mexaniki tipli suölçən cihazların smart tipli suölçən cihazlarla əvəz olunması səbəbindən yeni smart kartların verilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali və qeyri-əhali abonentləri üçün:*** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |

| | |
|---|---|
| | Abonent kodu |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | **Qeyd 1:** "Azərsu" ASC tərəfindən yeni quraşdırılmış suölçən cihazın dəyəri qeyri-əhali abonentləri tərəfindən tam ödənilməlidir. Suölçən cihaz zəmanət müddəti ərzində abonentin təqsiri olmadan istismara yararsız hala düşdükdə və bu səbəbdən dəyişdirildikdə suölçən cihazın dəyişdirilməsi üçün ödəniş tələb edilmir. |
| | **Qeyd 2**: Abonent tərəfindən quraşdırılmış suölçən cihazlar zədələndikdə və ya digər qüsurlar aşkar edildikdə bununla bağlı xərclər abonent tərəfindən ödənilir. |
| | **Qeyd 3:** "Azərsu" ASC tərəfindən yeni quraşdırılmış suölçən cihaz əhali abonentləri tərəfindən istismara yararsız hala salındıqda, sayğacın dəyəri və dəyişdirilmə xərcləri abonent tərəfindən ödənilməlidir. |
| **5** | **Smart tipli suölçən cihazın əvəz olunması səbəbindən yeni smart kartların verilməsi və əvvəlki kartda qalan sərfiyyatın yeni karta köçürülməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali və qeyri-əhali abonentləri üçün:*** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Abonent kodu; |
| | Əvəz edilmiş sayğacın smart kartı; |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Smart kartın verilməsi: Dərhal<br>Kartdan karta məbləğin köçürülməsi: Dərhal. Əlavə araşdırma tələb edilən hallarda növbəti iş günü |
| | **Qeyd 1:** "Azərsu" ASC tərəfindən yeni quraşdırılmış suölçən cihazın dəyəri qeyri-əhali abonentləri tərəfindən tam ödənilməlidir. Suölçən cihaz zəmanət müddəti ərzində abonentin təqsiri olmadan istismara yararsız hala düşdükdə və bu səbəbdən dəyişdirildikdə suölçən cihazın dəyişdirilməsi üçün ödəniş edilmir. |
| | **Qeyd 2:** Abonent tərəfindən quraşdırılmış suölçən cihazlar zədələndikdə və ya digər qüsurlar aşkar edildikdə bununla baglı xərclər abonent tərəfindən ödənilir. |
| | **Qeyd 3:** "Azərsu" ASC tərəfindən yeni quraşdırılmış suölçən cihaz əhali abonentləri tərəfindən istismara yararsız hala salındıqda, suölçən cihazın dəyəri və dəyişdirilmə xərcləri abonent tərəfindən ödənilməlidir. |
| | **Qeyd 4:** Smart tipli suölçən cihaz digər smart tipli suölçən cihazla əvəz olunubsa əvvəlki kartda qalan məbləğin yeni karta köçürülməsi labaratoriyanın rəyi əsasında həyata keçirilir |
| **6** | **Yeni abonentlərə smart kartların verilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali abonentləri üçün:*** |
| | Abonentin şəxsiyyət vəsiqəsi; |
| | Sayğacın nömrəsi və ya abonent kodu. |
| | ***Qeyri-əhali abonentləri üçün:*** |

| | |
|---|---|
| | Şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduğu halda); |
| | Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi (hüquqi şəxs olduğu halda); |
| | Sayğacın nömrəsi və ya abonent kodu. |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | **Qeyd 1:** Başqa şəxs müraciət etdiyi halda, qanunvericilikdə müəyyən olunmuş qaydada verilən etibarnamə və müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənəd təqdim edilməlidir. |
| | **Qeyd 2:** "Azərsu" ASC tərəfindən yeni quraşdırılmış suölçən cihazın dəyəri qeyri-əhali abonentləri tərəfindən tam ödənilməlidir. |
| | **Qeyd 3:** Əhali abonentləri, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olan abonentlər üzrə yaxın qohumlar (ata, ana, baba, nənə, ər (arvad), uşaqlar, bacı, qardaş, nəvələr) qohumluq əlaqələrini təsdiq edən sənədləri və abonentin şəxiyyət vəsiqəsini (və ya surətini) təqdim etməklə xidmətə müraciət edə bilərlər. |
| **7** | **Qüsurlu ödənişin bərpa edilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Ödəniş qəbzi |
| | Smart kart. |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | Əlavə araşdırma tələb olunan hallarda növbəti iş günü. |
| **8** | **Ödənişlər haqqında məlumatın verilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Abonent kodu; |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| **9** | **Suölçən cihazların quraşdırılması** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi |
| | Müqavilə nömrəsi və ya abonent kodu |
| | **Xidmət haqqı** |
| | Əhali ödənişsiz; |
| | Qeyri-əhali ödənişli. Ödəniş sifariş əsasında müəyyən edilir. |

| | |
|---|---|
| | **Müddət** |
| | 15 iş günü müddətində |
| **10** | **Suölçən cihazın işlək vəziyyətinin yoxlanılması (təmiri, dəyişdirilməsi və s.) üçün müraciətlərin qəbulu.** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi; |
| | Müqavilə nömrəsi və ya abonent kodu. |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | **Qeyd 1:** Suölçən cihazın işlək vəziyyətinin yoxlanılması 15 (on beş) iş günü müddətində həyata keçirilir. |
| | **Qeyd 2:** Əhali abonenti yaşayış binalarının girişində, pilləkən qəfəslərində, həmçinin fərdi yaşayış evlərinin (həyətyanı sahəsinin hasarının) xaricində quraşdırılmış suölçən cihazın oğurlanması ilə bağlı daxili işlər orqanına müraciəti əsasında əldə etdiyi sənədi Mərkəzə təqdim etməlidir. Müraciət əsasında "Azərsu" ASC-nin nümayəndəsi tərəfindən ünvana baxış keçirilərək suölçən cihazın yerində olmadığı öz təsdiqini taparsa yerində mövcud olmayan suölçən cihazın əvəzinə yeni suölçən cihazının quraşdırılma işləri “Azərsu” ASC-nin vəsaiti hesabına təmin edilir. Digər hallarda isə suölçən cihaz və quraşdırılma işləri abonentin vəsaiti hesabına təmin edilir. |
| | **Qeyd 3:** Qeyri-əhali abonentlərində suölçən cihazın oğurlanması ilə bağlı Mərkəzə müraciət olunduqda (suölçən cihazın oğurlanmasına dair daxili işlər orqanından əldə etdiyi sənədi təqdim etməklə) "Azərsu" ASC-nin nümayəndəsi tərəfindən ünvana baxış keçirilərək suölçən cihazın yerində olmadığı öz təsdiqini taparsa, yerində mövcud olmayan suölçən cihazın əvəzinə yeni suölçən cihazın dəyəri və quraşdırma xərcləri abonentin vəsaiti hesabına aparılır. Ödəniş sifariş əsasında müəyyən edilir. |
| | **Qeyd 4:** Suölçən cihaz abonent tərəfindən istismara yararsız hala salındıqda yeni suölçən cihazın dəyəri və quraşdırma xərcləri abonentin vəsaiti hesabına aparılır. Ödəniş sifariş əsasında müəyyən edilir. |
| **11** | **Borcun araşdırılması üzrə müraciətlərin qəbulu** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | Müraciət edən şəxsin şəxsiyyət vəsiqəsi |
| | Müqavilə nömrəsi və ya abonent kodu |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | **Qeyd** |
| | Borcun araşdırılması 5 (beş) iş günü, əlavə araşdırma tələb olunduqda isə 1 (bir) ay müddətində həyata keçirilir. |
| | Borcun araşdırılması zamanı araşdırma üçün zəruri olan digər sənədlər (ödəniş qəbzlərinin əsli, elektrik sərfiyyatının aylar üzrə tarixçəsi, ölüm haqda şəhadətnamənin surəti, məhkumluq dövrü barədə məhkəmə qərarının surəti, başqa yerdə yaşaması, təhsil alması, işləməsi barədə arayış, hərbi xidmət müddəti barədə arayış və s. bənzəri aidiyyəti sənədlər) də tələb oluna bilər. |

| 12 | **Texniki şərtin verilməsi (su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulma)** |
|---|---|
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali abonentləri üçün:*** |
| | Ərizə; |
| | Şəxsiyyət vəsiqəsi; |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, order, notarial qaydada təsdiq olunmuş alqı-satqı, icarə müqaviləsi, bələdiyyə orqanı tərəfindən verilmiş qərar/arayış (fərdi yaşayış evinin xəritə üzərində yerləşmə planı, koordinatları qeyd olunmaq şərtilə), yerli icra hakimiyyəti orqanı tərəfindən verilmiş qərar/arayış (fərdi yaşayış evinin xəritə üzərində yerləşmə planı koordinatları qeyd olunmaq şərtilə), və s.). |
| | ***Qeyri-əhali abonentləri üçün:*** |
| | Ərizə |
| | VÖEN (olduğu halda) və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün); |
| | Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi və VÖEN (hüquqi şəxs olduğu halda); |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı (tikinti ərazisinin vəziyyət planı təqdim edilmədikdə qeyri-yaşayış sahəsinin xəritə üzərində yerləşmə planı, koordinatları qeyd olunmaq şərtilə), yerli icra hakimiyyəti orqanı qərarı (tikinti ərazisinin vəziyyət planı təqdim edilmədikdə qeyri-yaşayış sahəsinin xəritə üzərində yerləşmə planı, koordinatları qeyd olunmaq şərtilə), order, və s.); |
| | Tikinti ərazisinin vəziyyət planı; |
| | Binanın (binaların), qeyri-yaşayış sahələrinin bütün yeraltı kommunikasiyaları, xarakteristikası (binaların, qeyri-yaşayış sahələrinin hündürlüyü və ya mərtəbəliliyi, mənzillərin sayı, suya olan tələbatı, axıdılacaq tullantı sularının miqdarı (həcmi) barədə sənəd; |
| | Obyektin tikintisinə dair layihənin surəti. |
| | **Xidmət haqqı** |
| | Texniki şərtin verilməsi-Ödənişsiz; Qoşulma: Əhali-ödənişsiz; Qeyri-əhali ödənişli (ödəniş sifariş əsasında müəyyən edilir). |
| | **Müddət** |
| | Texniki şərtin verilməsi-10 iş günü müddətində; |
| | Qoşulma: 15 (on beş) iş günü müddətində. |
| | **Qeyd 1:** Texniki şərt verildikdən sonra 2 (iki) il müddətində qüvvədədir. |
| | **Qeyd 2:** Fərdi yaşayış evinin su təchizatı və kanalizasiya sistemlərinə birləşdiriləcəyi paylayıcı şəbəkə və qurğulara qədər məsafə 30 metrə qədər olduğu halda, qoşulmalar "Azərsu" ASC tərəfindən hazırlanan texniki şərtlərə əsasən, bu məsafədən artıq olduğu halda fərdi yaşayış evinin yerləşdiyi ərazinin perspektiv layihəsinə uyğun şəbəkələrin inşası ilə verilməlidir. |
| | **Qeyd 3:** Qeyri-əhali abonentləri üçün su təchizatı və kanalizasiya sistemlərinə qoşulma işləri və xətlərin çəkilişi sifarişçinin vəsaiti hesabına həyata keçirilir. |
| | **Qeyd 4:** Qeyri-əhali abonentləri üzrə qoşulma nöqtəsinə qədər çəkiliş sifarişçi tərəfindən texniki normalara uyğun həyata keçirildikdən, qoşulma xərcləri tam ödənildikdən və müraciət olunduqdan sonra abonentin şəbəkəyə qoşulması 15 (on beş) iş günü müddətində həyata keçirilir. |

| | |
|---|---|
| | **Qeyd 5:** Texniki şərtlər yalnız tikinti obyektləri üçün verilir. Tikinti obyektləri dedikdə tikinti fəaliyyəti prosesində yaradılan və ya yaradılmış bina (o cümlədən, yaşayış binaları, yaşayış evləri) və ya qurğular nəzərdə tutulur. |
| | **Qeyd 6:** Başqa şəxs müraciət etdiyi halda, qanunvericilikdə müəyyən olunmuş qaydada verilən etibarnamə və müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənəd təqdim edilməlidir. |
| | **Qeyd 7:** Əhali abonentləri, həmçinin hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olan abonentlər üzrə yaxın qohumlar (ata, ana, baba, nənə, ər (arvad), uşaqlar, bacı, qardaş, nəvələr) qohumluq əlaqələrini təsdiq edən sənədləri və sifarişçinin şəxiyyət vəsiqəsini (və ya surətini) təqdim etməklə xidmətə müraciət edə bilərlər. |
| **13** | **Yeni istehlakçının qeydiyyata alınması** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali abonentləri üçün:*** |
| | Şəxsiyyət vəsiqəsi; |
| | Texniki şərt (zəruri olduqda); |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order və s.). |
| | ***Qeyri-əhali abonentləri üçün:*** |
| | VÖEN (olduğu halda) və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər üçün); |
| | Texniki şərt (zəruri olduqda); |
| | Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi və VÖEN (hüquqi şəxs olduğu halda); |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order və s.). |
| | **Xidmət haqqı** |
| | Ödənişsiz |
| | **Müddət** |
| | Dərhal |
| | **Qeyd 1:** Əhali qrupuna aid olan istehlakçı yaşayış yeri üzrə qeydiyyatda olan şəxslərin sayı barəsində sənəd təqdim etmədikdə, sudan istifadə edən şəxslərin sayı orta statistik əhali sayına uyğun olaraq qəbul edilir. |
| | **Qeyd 2:** Ünvan məlumatları baza məlumatları ilə uyğunsuzluq təşkil etdikdə istehlakçının müvafiq sənədləri və ərizəsi qəbul edilir, 3 iş günü müddətində müvafiq dəqiqləşmələr aparılaraq istehlakçının qeydiyyata alınması təmin edilir. |
| **14** | **Abonent məlumatlarında dəyişiklik edilməsi** |
| | **Zəruri olan sənədlərin siyahısı** |
| | ***Əhali abonentləri üçün:*** |
| | Abonentin şəxsiyyət vəsiqəsi; |
| | Abonent kodu; |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order, notarial qaydada təsdiq olunmuş alqı-satqı, icarə müqaviləsi, bağışlama, vərəsəlik haqqında şəhadətnamə və s.); |
| | ***Qeyri-əhali abonentləri üçün:*** |

| | |
|---|---|
| | VÖEN (olduğu halda) və şəxsiyyət vəsiqəsi (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs olduğu halda); |
| | Mülkiyyəti və ya əşya hüququnu təsdiq edən sənəd (çıxarış, sərəncam, bələdiyyə qərarı, order, notarial qaydada təsdiq olunmuş alqı-satqı, icarə müqaviləsi və s.); |
| | Hüquqi şəxsin təmsilçisinə (nümayəndəsinə) verilən müvafiq məktub, nümayəndənin şəxsiyyət vəsiqəsi və VÖEN (hüquqi şəxs olduğu halda); |
| | Dövlət rüsumunun məbləği |
| | Ödənişsiz |
| | **Müddət** |
| | 3 (üç) iş günü müddətində |
| | **Qeyd 1:** Əhali qrupuna aid olan abonent yaşayış yeri üzrə qeydiyyatda olan şəxslərin sayı barədə sənəd təqdim etmədikdə, sudan istifadə edən şəxslərin sayı orta statistik əhali sayına uyğun olaraq qəbul olunur. |
| | **Qeyd 2:** Abonent (istehlakçı) dəyişdiyi zaman borc aşkar olunduğu halda xidmət həyata keçirilmir. Borc ödənildikdən sonra xidmət həyata keçirilir. |
| | **Qeyd 3:** Abonent ad, ata adı, soyadın dəyişdirilməsi haqda şəhadətnaməni təqdim etdiyi halda mülkiyyət sənədini təqdim etmədən xidmətə müraciət edə bilər. |
| | **Qeyd 4:** Mülkiyyət sənədində payçılar mövcud olduğu halda (mülkiyyət sənədində qeyd olunan ünvan üzrə payçıların hər biri ayrıca abonent olduğu hallar istisna olmaqla) onların razılıq ərizəsi tələb olunur. |
| | **Qeyd 5:** Başqa şəxs müraciət etdiyi halda, qanunvericilikdə müəyyən olunmuş qaydada verilən etibarnamə və müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənəd təqdim edilməlidir. |
| | **Qeyd 6:** Yaxın qohumlar (ata, ana, baba, nənə, ər (arvad), uşaqlar, bacı, qardaş, nəvələr) qohumluq əlaqələrini təsdiq edən sənədləri və abonentin şəxiyyət vəsiqəsini (və ya surətini) təqdim etməklə xidmətə müraciət edə bilərlər. |
| | **Qeyd 7:** Abonentin mülkiyyət sənədi olmadığı halda, ona məxsus abonent kodunu notarial qaydada təsdiq edilmiş ərizə əsasında digər şəxsin adına keçirə bilər. |
| | **Qeyd 8:** Abonentin mülkiyyət sənədi olmadığı halda, abonent kodu adına olan şəxs vəfat etdikdə ona məxsus abonent kodu ölüm və nikah haqqında şəhadətnamə təqdim olunmaqla arvadın (ərin) adına keçirilə bilər. |
| | **Qeyd 9:** Abonentin mülkiyyət sənədi olmadığı halda, abonent kodu adına olan valideyin (lər) vəfat etdikdə ona məxsus abonent kodunu öz adına keçirmək istəyən övlad ölüm haqqında şəhadətnamə (lər) təqdim etməklə həmin mənzildə (evdə) yaşayan digər ailə üzvlərinin razılıq ərizəsi əsasında adına keçirə bilər. |
| | **Qeyd 10:** Abonentə məxsus mülkiyyət hüququnu təsdiq edən sənəd bankda girovda olduqda, onun bank tərəfindən təsdiq olunmuş surəti təqdim olunmalıdır. |